# Növbəti qələbələrin başlanğıcı olan Aprel döyüşləri



## Ekspertlər hesab edirlər ki, bu şanlı zəfər Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində Azərbaycan xalqının və dövlətinin mövqeyini bütün dünyaya göstərib

**Azərbaycan Ordusunun parlaq tarixi qələbələrindən sayılan şanlı Aprel döyüşlərindən üç il ötür. 2016-cı il aprelin 2-də Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad edib.**

Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçib. Azərbaycan Silahlı Qüvvələrinin bölmələri aprelin əvvəlində qısa müddətdə düşmənin öndə və dərinlikdə cəmləşən qüvvələrini müəyyənləşdirib və qəti zərbələrlə sıradan çıxarıb. Uğurlu əməliyyatlar nəticəsində Naftalan şəhərinə təhlükə yaradacaq Talış kəndi istiqamətindəki yüksəkliklər işğalçılardan təmizlənib. Həmçinin Horadiz şəhərinin düşmən təhlükəsindən qorunması məqsədilə Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən olduqca strateji əhəmiyyətli Lələtəpə yüksəkliyi azad edilib. Ordumuzun qəti zərbələri nəticəsində düşmənin 30-dək tankı, 25-dən çox artilleriya qurğusu və digər zirehli texnikası məhv edilib, 320 hərbçisi öldürülüb, 500-dən artıq döyüşçüsü yaralanıb. Ağdərə-Madagiz istiqamətində yolların nəzarətdə saxlanılması təmin edilib.

Mövzu ilə bağlı ”Kaspi” qəzetinə açıqlama verən **millət vəkili, politoloq Hikmət Babaoğlu** bildirdi ki, aprel döyüşləri təkcə son Qarabağ savaşının deyil, bütövlükdə Ermənistanın Azərbaycan torpaqlarının işğalına başladığı dövrdən, yəni 1918-ci ildən indiyə qədər ciddi tarixi dönüş nöqtəsidir. O qeyd edib ki, Aprel döyüşlərinin bu cür qiymətləndirilməsi daha ədalətli olar. Deputatın fikrincə, bu hadisə əslində Azərbaycanın növbəti qələbələrinin başlanğıcıdır: ”Çünki Azərbaycan ordusu nəzərdə tutduğumuz son 100 illik tarixdə yalnız 1993-cü ilin dekabrında Horadiz əməliyyatı zamanı nailiyyətlər əldə edib. Ondan sonrakı mərhələdə bu miqyasda qalibiyyətlə nəticələnən döyüşlər olmayıb. Hazırkı mürəkkəb hərbi-siyasi vəziyyətdə Azərbaycan ordusunun bu cür qələbələr əldə etməsi, heç şübhəsiz, bundan sonrakı mərhələdə Dağlıq Qarabağ münaqişəsinin həllində yeni şərtlər formalaşdırdı, yeni şərait yaratdı. Eyni zamanda bu prosesdə hərbi-psixoloji üstünlük Azərbaycan tərəfinə keçmiş oldu. Ötən üç il ərzində biz bu hadisənin Ermənistan cəmiyyətində nə qədər pessimist əhval-ruhiyyə, nə qədər mənəvi, hərbi, psixoloji məğlubiyyət yaratdığının şahidi olduq. Ermənistanda 2018-ci ildən başlayaraq bu günə qədər də davam edən ölkədaxili zəlzələ də məhz Aprel döyüşlərinin yaratdığı yeni reallığın nəticəsidir. Göründüyü kimi, bu, təkcə hərbi məsələ deyil, eyni zamanda ciddi mənəvi-psixoloji və siyasi məsələdir”.

Millət vəkili Aprel döyüşlərinin əhəmiyyətinin sadəcə yuxarıda qeyd olunanlarla yekunlaşmadığını söylədi. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həm də beynəlxalq tərəflərinin olmasına diqqət çəkib. Bildirib ki, bu konfliktdə iştirak edən təkcə işğalçı Ermənistan deyil: ”Azərbaycan torpaqlarını işğal edən Ermənistanın tərəfində olan, onu gizli və ya açıq şəkildə himayə edən imperialist güc mərkəzləridir. Aprel döyüşlərindən sonra onlar da lazımi mesajlar aldılar və bir daha başa düşdülər ki, status-kvonun saxlanılması cəhdləri bu problemin həllində heç də yaxşı perspektivlər vəd etmir. Hətta mən deyərdim, bəzi imperialist mərkəzlər onu da anladılar ki, belə davam edərsə, bir gün Azərbaycan artıq nə BMT-nin mandatı ilə fəaliyyət göstərən ATƏT-in Minsk qrupuna, nə də onun həmsədrlərinə ehtiyacı olmadan, özü bu problemi həll edə bilər”.

H.Babaoğlu vurğuladı ki, Aprel döyüşləri mühüm bir taktiki qələbə kimi özündən sonra Günnüt zəfərinin əsasını qoyub: ”Azərbaycan ordusu Aprel döyüşlərindən cəmi 2 il sonra Naxçıvan ərazisində 90-cı illərin əvvəllərində işğalçı Ermənistan tərəfindən nəzarətə götürülən torpaqlarımıza nəzarəti geri qaytarmaqla, strateji yüksəkliklərdə möhkəmləndi və İrəvan - Qafan strateji yolunu nəzarətə götürdü. Artıq ermənilərə məlumdur ki, bənzər hadisə yenə təkrarlana bilər. Özü də bu proses Azərbaycanın torpaqları işğaldan tam azad edilənə qədər davam də bilər. Aprel döyüşlərinin yaratdığı başqa bir reallıq azad edilmiş torpaqlarımıza ”Böyük qayıdışın” başlanmasının əsasının qoyulması ilə əlaqədardır. Bu hadisə problemin həllində yeni mərhələ yaratmaqla, status-kvonun legitimləşdirilməsi cəhdlərinin mümkün olmadığını bir daha hər kəsə göstərmiş oldu”.



**Ehtiyatda olan polkovnik Şair Ramaldanov** da qəzetimizə açıqlamasında bildirdi ki, Aprel döyüşlərinin Azərbaycan üçün əhəmiyyəti çox böyükdür. Onun fikrincə, uzun müddət atəşkəs rejiminin hökm sürməsinə, döyüş şəraitində yaşamasına baxmayaraq, real hərbi əməliyyat aparmayan Ordu, bu döyüş sınağından uğurla çıxıb: ”Azərbaycan Silahlı Qüvvələrinin döyüş hazırlığı daim yüksək səviyyədədir. Bu, birmənalıdır. Amma ordu nə qədər poliqonlarda döyüş təlimləri keçsə də, onun real nəticəsi ancaq döyüşlərdə ortaya çıxır. Həmin ordunun peşəkarlığını, hazırlıq səviyyəsini real döyüşlər tam çılpaqlığı ilə ortaya çıxarır. Bu baxımdan Aprel döyüşləri bütün dünyaya nümayiş etdirdi ki, Azərbaycan Ordusunun bölmələri, hərbçilərimiz qarşılarına qoyulan istənilən vəzifəni istənilən an yerinə yetirmək gücündədir. Ordumuz döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Xatırladım ki, Aprel döyüşləri Azərbaycan Silahlı Qüvvələrinin hücum əməliyyatı deyildi və bu, uzunmüddətli döyüş hesab oluna bilməz. Həmin vaxt düşmən silahlı birləşmələri təxribata əl ataraq mövqelərimizə soxulmağa çalışıblar. Silahlı Qüvvələrimizin həmin istiqamətdə olan bölmələrinin hərbçiləri düşmənin bu hücumunun qarşısını alarkən əks hücuma keçərək işğalçı ordunu geri çəkilməyə məcbur ediblər. Bu zaman Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi yaxınlığındakı Lələtəpə və digər strateji yüksəkliklər düşməndən azad olunub. Hansı ki, işğalçı ordunun hərbçiləri vaxtilə bu yüksəkliklərdə mövqe tutaraq Cocuq Mərcanlı və ətraf yaşayış məntəqələrini daim atəş altında saxlayırdılar, hətta dinc sakinləri hədəfə alırdılar. Qeyd olunan strateji mövqelərin ələ keçirilməsi, düşməndən təmizlənməsi təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi kimi də qiymətləndirilməlidir. Məhz bu hadisədən sonra Cocuq Mərcanlı, Horadiz və sair yaşayış məntəqələrimizin təhlükəsizliyi təmin olunub. Ardınca da Cocuq Mərcanlıda geniş miqyaslı abadlıq-quruculuq tədbirləri görülüb, yeni mənzillər inşa edilib, təsərrüfatlar qurulub və kənd sakinləri öz evlərinə qaytarılıb. Bununla da ”Böyük qayıdış”ın əsası qoyulub”.

Hərbi ekspert qeyd etdi ki, Aprel döyüşlərində ordumuz ona tapşırılan vəzifənin öhdəsindən layiqincə gəlib: ”Bəzən deyirlər ki, həmin vaxt 4 gün döyüş gedib. Amma bu, belə deyil. Silahlı Qüvvələrimizin təmas xəttində yerləşən azsaylı qüvvəsi düşmən hücumunun qarşısını alaraq dərhal əks həmlə edib, 1 gün ərzində qeyd edilən strateji yüksəkliklərə, mövqelərə nəzarəti ələ keçirib. Sonrakı 3 gün ərzində qarşı tərəf davamlı olaraq hücumlar təşkil edib. Ordumuz da bu hücumların, həmlələrin qarşısını alıb, düşməni böyük itkilərə məruz qoyub. Hücumlar təşkil etməyin mənasızlığını, ordusunun zəifliyini dərk edən işğalçı Ermənistan, üçüncü tərəflərə üz tutdu, Rusiyadan yardım istədi və strateji yüksəkliklər Azərbaycan Ordusunun nəzarətində qalmaqla, atəşkəs yenidən bərpa olundu. Aprel döyüşləri sübut etdi ki, müasir Azərbaycan Ordusu və onun gənc əsgər və zabitləri öz torpağını işğaldan azad etməyə, vətən uğrunda canından da keçməyə hazırdır”.

Ş.Ramaldanov bildirdi ki, Aprel döyüşlərində düşmənin cəbhə xəttində məğlubiyyətə uğradılması bir müddət sonra işğalçı Ermənistanda inqilaba, siyasi rəhbərliyin dəyişməsinə də səbəb olub: ”Ermənistan cəmiyyətində böyük narazılıqlar yarandı və əsgər anaları öz övladlarının Dağlıq Qarabağ və işğal altındakı digər ərazilərimizdə hərbi xidmət keçməsinə qarşı çıxdılar. Hətta Azərbaycan tərəfinə ünvanlanan müraciətlər də oldu ki, atəşkəs bərpa olunsun. Prezident İlham Əliyev isə qətiyyətlə bəyan etdi ki, əgər erməni əsgəri, Ermənistan vətəndaşı olan hərbi qulluqçu ölmək istəmirsə, Azərbaycanın işğal olunmuş ərazilərinə gəlməsin. Azərbaycan cəmiyyətində isə bu hadisə böyük ruh yüksəkliyi, qələbə sevinci ilə qarşılandı. Cəmiyyətimiz böyük sınaqdan mətanətlə çıxdı. Hər bir vətəndaş Ali Baş Komandan İlham Əliyev ətrafında birləşərək ona öz dəstəyini göstərdi”.

**Hərbi ekspert İbrahim Rüstəmli** də bizimlə söhbətində qeyd etdi ki, Aprel döyüşləri ilk növbədə Azərbaycan xalqının iradəsini ortaya qoyub. Onun fikrincə, bu qısamüddətli döyüşlər Azərbaycan dövlətinin və xalqının Dağlıq Qarabağ münaqişəsinin həllində prinsipial mövqeyini növbəti dəfə nümayiş etdirib: ”Dünya ictimaiyyəti gördü ki, Azərbaycan xalqı və dövləti ölkənin ərazi bütövlüyünün istənilən yolla bərpasına hazırdır. Göründü ki, biz, Dağlıq Qarabağı və işğal altındakı əraziləri heç bir halda Ermənistana güzəştə getməyəcəyik. Bu münaqişənin danışıqlar yolu ilə, yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinin mümkünlüyü bir daha ortaya qoyuldu. Bununla qeyd olundu ki, əks-təqdirdə, Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə vurmaqla, onu ağır məğlubiyyətə uğratmaqla işğal altındakı ərazilərimizi müharibə yolu ilə azad edəcək. Ona görə də, Aprel döyüşlərinin hərbi, siyasi, strateji, eləcə də mənəvi, psixoloji üstünlükləri çoxdur. Bu tarixi hadisə Azərbaycan əsgərinin necə böyük döyüş əzminə sahibləndiyini, milli-mənəvi dəyərlərimiz, ərazilərimiz, dövlət maraqlarımız uğrunda savaşa hazır olduğunu göstərdi. Aprel döyüşlərində Azərbaycan əsgəri öz şücaəti ilə qəhrəmanlıq dastanı yaratdı”.

Sonda onu da əlavə edək ki, Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanması, erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri qəhrəmanlıq və igidliyə görə hərbçilərimizin xüsusi fərqlənən bir qrupu 2016-cı il aprelin 19-da Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə yüksək fəxri ada layiq görülüb, orden və medallarla təltif edilib. Dövlət başçısının tapşırığına uyğun olaraq, şəhid ailələri və həmin döyüşlərdə yaralanaraq əlil olmuş hərbçilərlə bağlı mühüm sosial müdafiə tədbirləri həyata keçirilib. Onlara qanunvericilikdə nəzərdə tutulan qaydada müvafiq sosial təminat növləri, o cümlədən Azərbaycan Prezidentinin aylıq təqaüdləri, müavinət və ya əmək pensiyaları, habelə uşaqlarına, eləcə də əmək pensiyası almaq hüququ olmayan şəhid ailəsi üzvlərinə müavinətlər təyin olunub. Eləcə də, müharibə əlilləri kimi, hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar əlilliyi olanların, o cümlədən aprel döyüşləri ilə əlaqədar əlilliyi olanlar üçün müavinət və təqaüdlər də cari il aprelin 1-dən 100 faizədək artırılıb.

Bununla yanaşı, Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin reabilitasiyasına da xüsusi qayğı göstərilir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın tapşırığına uyğun olaraq, qeyd olunan əsgər və zabitlərin reabilitasiyası sahəsində yüksək səviyyədə işlər aparılıb. Belə ki, Heydər Əliyev Fondunun ”2016-cı ilin aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi” layihəsi çərçivəsində həmin əsgər və zabitləri Almaniya, İslandiya, İngiltərənin dünyada müasir protez istehsalçıları kimi tanınan şirkətlərinin yüksək texnologiyalı reabilitasiya məhsulları ilə təmin ediliblər. Aprel döyüşlərində şəhid olanların ailələrinin, müharibə əlillərinin digər sahələrdə də qayğı ilə təmin olunması üçün müvafiq işlər aparılır.

**Rufik İSMAYILOV**